# USAID-in bütün maskaları yırtıldı

## Bu təşkilat çirkli pulların yuyulmasında, rəngli inqilabların təşkilində birbaşa iştirak edib

**"Beynəlxalq miqyasda humanitar və inkişafa dəstək platforması kimi təqdim edilən ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəsmi Vaşinqton tərəfindən gerçək simasının ifşa edilməsi və fəaliyyətinin dayandırılması qərarının verilməsi hazırda dünyanın diqqətini çəkən əsas müzakirə mövzusudur. Uzun illərdir ki, "xeyriyyəçilik fəaliyyəti" adı altında siyasi məqsəd və kəşfiyyat ambisiyalarının təmsilçisi rolunda çıxış edən USAID korrupsiyada, çirkli pulların yuyulmasında, rəngli inqilabların təşkilində birbaşa iştirak edib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Aydın Hüseynov deyib. O bildirib ki, USAID uzun illər sosial və səhiyyə layihələrinə böyük həcmdə vəsaitlər yönəltsə də, pulların əksəriyyəti korrupsiya "yeminə" çevrilib. Eləcə də, dünyada medianın inkişafı adı altında layihələrə də ayırdığı pulların böyük qismini mənimsəyib. Ötən illərdə bu təşkilat 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT-ni maliyyələşdirib. "KİV üzərindən çirkin planların həyata keçirilməsində USAID kimi üzdə "humanitar", alt qatda isə korrupsiya və siyasi oyunlarla məşğul olan qurumlardan istifadə olunub. Bu kimi "yumşaq güc" siyasətinin əsas mərkəzi kimi çıxış edən USAID və başqa təşkilatlar xüsusilə postsovet regionuna, o cümlədən Cənubi Qafqaza yönəlik planları ilə diqqət çəkib. Bu mərkəzlərin nəzarətində olan, əmrlərini yerinə yetirən feminist qruplar, internet resursları mərkəzləşdirilmiş "qrant şəbəkəsi" tərəfindən idarə olunublar. Yeri gəlmişkən, 2023-cü ildə Gürcüstanda ortaya çıxan faktlar bu mənada örnək nümunələrdən sayılır. USAID Tbilisidə yerli QHT-lərlə birgə fərqli "mövzu"larda təlimlər təşkil edirdi, amma sonradan Gürcüstanın hüquq-mühafizə orqanlarının yaydıqları məlumatlarda bəlli olmuşdu ki, təlim iştirakçılarına "dövlət çevrilişi hazırlamağın metodları" öyrədilibdi", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, USAID ölkəmizdəki bir sıra media orqanlarına da anti-Azərbaycan fəaliyyəti məqsədilə pullar ayırıb. Vaxtilə Azərbaycanda bəzi gənclər təşkilatlarını maliyyələşdirib, hökumət əleyhinə qeyri-qanuni aksiyalar təşkil edib. 2014-cü ildə bu qurumun Azərbaycanda "müstəqil medianın inkişafı" üçün fantastik həcmdə - 2,4 milyon dollar məbləğində qrant elan etməsi bunun bariz nümunəsidir. Həmin il ABŞ Milli Demokratiya İnstitutunun (MDİ/NDİ) Bakıdakı nümayəndəliyinin sabiq rəhbəri özünün bank hesabından təqribən iki milyon dollar vəsait çıxararaq bəzi QHT-lərə, konkret şəxslərə paylamışdı. Lakin Azərbaycan güclü dövlət kimi, ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi və həmrəyliyi sayəsində bu təşkilatın ölkəmizlə bağlı planlarını iflasa uğratmışdı.

A.Hüseynovun sözlərinə görə, USAID-in fəaliyyətində hər zaman ermənipərəstlik qırmızı xətlə keçib: "Ötən ilin iyul ayında USAID-in rəhbəri Samanta Pauer Ermənistana səfər etmişdi. Səfər zamanı təşkilatın Ermənistanda "Amazon web service" ilə hökumət arasında əməkdaşlığı dəstəkləmək üçün 5 milyon dollar ayırdığı bildirilmişdi. S.Pauer USAID-in Ermənistanın informasiya texnologiyaları sektoruna daha 2,4 milyon dollar ayıracağını da elan etmişdi. Ötən ilin sentyabrında USAID Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıracağını elan etmişdi. Bu pullar isə çirkli pulların yuyulmasının bir sxemi olmaqla, həm də siyasi kəşfiyyat xarakterli məqsədlərə yönəldilib".

USAID-in bölgədə cinayətkar qrupları maliyyələşdirən korrupsiyalaşmış təşkilat kimi fəaliyyət göstərdiyini vurğulayan deputat deyib ki, ABŞ Prezidenti Donald Tramp ABŞ Beynəlxalq İnkişaf Agentliyini böyükmiqyaslı korrupsiyalaşmış təşkilat adlandırıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 18 fevral (№ 36).- S.8.